# Dayanıqlı İnkişafa dair Bakı Forumu işini başa çatdırıb

## Forumun yekununda Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə inteqrasiyası və onların icrasının sürətləndirilməsinə dair Bakı prinsipləri qəbul edilib

*VI Beynəlxalq Humanitar Forumu çərçivəsində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi" mövzusunda keçirilən Dayanıqlı İnkişafa dair Bakı Forumu oktyabrın 26-da işini dörd sessiyada davam etdirib. Forumun ikinci günündə "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində gənclər, qadınlar, parlament, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflərin rolu barədə interaktiv müzakirə", "2030-cu ilədək dayanıqlı inkişaf üçün sülhsevər və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün ədalət məhkəməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təşkilatlar qurmaq", "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında BMT-nin İnkişaf Proqramının aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək missiyasının rolu" və "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün təmiz su təchizatı, o cümlədən iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə aparmaq üçün əməkdaşlığın gücləndirilməsi" mövzularında keçirilmiş sessiyalarda səmərəli və maraqlı müzakirələr aparılıb.*

*AZƏRTAC forumun ikinci iş gününün gedişini sessiyalar üzrə şərh edir.*









### Forumun ikinci sessiyasında Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində bütün səviyyələrdə səmərəli iştiraka dair müzakirələr aparılıb

Forumun "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində gənclər, qadınlar, parlament, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflərin rolu barədə interaktiv müzakirə" mövzusuna həsr olunan ikinci sessiyasına moderatorluq edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri **Hicran Hüseynova** müzakirəyə çıxarılan mövzuların Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması baxımından əhəmiyyətini qeyd edib.

DİM-ə nail olunmasında gender bərabərliyinin önəmini vurğulayan H.Hüseynova bildirib ki, ölkəmizdə bu istiqamətdə çox güclü hüquqi qanunvericilik bazası yaradılıb. Bu da cəmiyyətdə, ictimai, siyasi və s. sahələrdə qadınların rolunun gücləndirilməsinə imkan verib. Bu prosesdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın misilsiz xidmətlərini qeyd edən komitə sədri deyib ki, onun fəaliyyəti ölkəmizdə gender bərabərliyinin genişlənməsinə də şərait yaradıb. Ölkəmizdə aztəminatlı ailələrin, qadınların məşğulluqlarının təmin olunması istiqamətində görülən işlərdən danışan H.Hüseynova deyib ki, həyata keçirilən tədbirlər nəticəsində kənd yerlərində məşğul əhalinin 49,9 faizini qadınlar təşkil edir.

Belarus parlamentinin sədr müavini xanım **Marianna Şyotkina** bildirib ki, hazırda Belarusda DİM strateji proqramlara əlavə edilir. O, DİM-ə nail olunması istiqamətində tərəfdaşlıq əlaqələrinin gücləndirilməsində vahid məlumat bazasının yaradılmasının önəmini vurğulayıb, forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini **Bahar Muradova** vurğulayıb ki, bu forum Bakının dünyanı narahat edən problemlərin həllinə yüksək diqqət yetirməsinin göstəricisidir. DİM-ə nail olunmasında cəmiyyətin bütün təbəqələrinin iştirakının və yüksək səviyyədə əlaqələndirmənin önəmini vurğulayan Bahar Muradova Milli Məclisin ölkəmizdə bir çox problemlərin həlli istiqamətində mühüm qanunlar qəbul etdiyini deyib. O bildirib ki, parlamentin qəbul etdiyi qanunlar, Azərbaycanda büdcənin sosialyönümlü olması, ehtiyac meyarının ildən-ilə artırılmasının qanunvericilikdə təsbiti, kiçik və orta sahibkarlığın inkişafına dəstək, ailə təsərrüfatlarının yaradılması, əhalinin maliyyə mənbələrinə əlçatanlığının təmin edilməsi, iştirakçılıq haqqında qanunun qəbulu, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində görülən işlər ölkəmizdə DİM-ə nail olunması baxımından çox əhəmiyyətlidir.

Bahar Muradova bildirib ki, DİM-in icrası prosesində parlamentlə yanaşı, bütün maraqlı qruplar fəal iştirak etməlidirlər. O, ölkəmizdə bir sıra qanunlara dəyişiklik və əlavələrin olunmasının nəzərdə tutulduğunu vurğulayıb. Bildirib ki, təkcə azad iqtisadi zonanın yaradılması 80-ə yaxın qanuna əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutur.

Milli Məclisin deputatı **Tahir Mirkişili** müasir texnologiyaların inkişafı nəticəsində mərkəzində insan olan yeni idarəetmə fenomeninin yaradıldığını qeyd edib. Bildirib ki, Azərbaycan DİM-də əksini tapan hədəflərin bir çoxuna nail olub. Azərbaycanda son 15 ildə yoxsulluq on dəfədən çox azalıb. Ölkəmizdə ailə təsərrüfatının inkişafı, özünüməşğulluğun təminatı istiqamətində dövlətin yürütdüyü siyasət bu sahədə də mühüm uğurların qazanılmasına təminat yaradır.

Gənclər və idman nazirinin müavini **İntiqam Babayev** deyib ki, Azərbaycanda gənclər böyük potensiala malikdir, onlara daim yüksək diqqət göstərilir. Buna görə də Azərbaycan dövlətinin gənclərlə bağlı qəbul etdiyi dövlət sənədlərində DİM ilə uzlaşan bir çox məsələlər əksini tapıb. Nazir müavini vurğulayıb ki, Azərbaycan gəncliyi DİM ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirmək üçün hər cür qabiliyyətə və istedada malikdir.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (GTMŞ) sədri **Məryəm Məcidova** GTMŞ-yə üzv qurumların DİM-ə nail olunması prosesində fəallıq göstərdiklərini vurğulayıb. O deyib ki, 2016-cı ildən icra olunan "Gənclər daha yaxşı gələcək uğrunda" kampaniyası çərçivəsində ölkəmizin müxtəlif bölgələrində geniş layihə və tədbirlər reallaşdırılıb.

### Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri üzrə öhdəlikləri yerinə yetirən ölkələr arasında ilk sıralardadır

Forumun Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili **Elmira Süleymanovanın** moderatorluğu ilə keçən üçüncü sessiyası "2030-cu ilədək dayanıqlı inkişaf üçün sülhsevər və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün ədalət məhkəməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təşkilatlar qurmaq" mövzusuna həsr edilib.

DİM-ə nail olunması istiqamətində ölkəmizdə görülən işlərdən danışan E.Süleymanova Azərbaycan Xalq Cümhuriyyətinin 100 il əvvəl qadınlara kişilərlə bərabər seçib-seçilmək hüququ verdiyini deyib. Ombudsman qeyd edib ki, bütün sahələrdə sürətlə irəliləyən Azərbaycan DİM-in gerçəkləşməsində də mühüm uğurlar qazanıb. Bu, özünü dayanıqlı inkişaf üçün sülhsevər və inklüziv cəmiyyətin təşviqində, hamının ədalət məhkəməsinə çıxış imkanının təmin edilməsində və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təşkilatların qurulmasında, yeni təşəbbüslərin həyata keçməsində əksini tapıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın bir milyondan çox vətəndaşının hüquqlarının pozulduğunu vurğulayan E.Süleymanova deyib ki, DİM-in həyata keçirilməsi istiqamətində mühüm addımlar atan Azərbaycan üçün sülh və inkişaf çox vacibdir. O, Azərbaycanın DİM-ə çatmaq istiqamətində öhdəlikləri yerinə yetirən ölkələr arasında ilk sıralarda olduğunu vurğulayıb, bu baxımdan Prezident İlham Əliyevin ötən il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair sərəncamın əhəmiyyətini xüsusi qeyd edib.

BMT Baş katibinin hüquq, təhlükəsizlik və təşkilatlar üzrə köməkçisi **Aleksandr Zuev** belə mötəbər foruma dəvət olunmasına görə minnətdarlığını bildirib. Son illər Azərbaycanın sürətlə inkişaf etdiyini vurğulayan A.Zuev əldə edilmiş uğurlara görə təbriklərini çatdırıb, Forumun önəmini yüksək qiymətləndirib.

Türkiyənin insan hüquqları üzrə baş müvəkkili **Şərəf Malkoç** Azərbaycana hər səfərində gördüyü sürətli inkişafdan məmnunluğunu bildirib. Dayanıqlı inkişafa dair belə mötəbər tədbirin Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan Ş.Malkoç Azərbaycan və Türkiyə prezidentlərinin siyasi iradələri ilə həyata keçirilən nəhəng transmilli layihələrin regionda və dünyada sabitliyə, inkişafa və əməkdaşlığa təkan verdiyini qeyd edib.

Dünyada baş verən münaqişələrin böyük insan axınına səbəb olduğunu deyən Ş.Malkoç bildirib ki, Azərbaycan müstəqilliyinin ilk illərindən bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə üz-üzə qalıb. Türkiyə qonşuluğunda baş verən münaqişə ilə əlaqədar 4 milyona yaxın suriyalını qəbul edib. Dünya ictimaiyyətinin münaqişələrin həllinə ikili standartlardan yanaşdığını vurğulayan Ş.Malkoç Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirmədiyini diqqətə çatdırıb.

Bosniya və Herseqovinanın Xarici İşlər Nazirliyinin xüsusi işlər üzrə səfiri **Miloş Prisa** münaqişələrin DİM-in həyata keçirilməsi üçün ən böyük maneə olduğunu vurğulayıb.

Qazaxıstanın insan hüquqları üzrə müvəkkili **Askar Şakirov** forumun ölkəsi üçün vacib vaxta - DİM ilə bağlı icmal sənədin hazırlanması dövrünə təsadüf etməsindən məmnunluğunu bildirib. O qeyd edib ki, Qazaxıstan DİM-in həyata keçirilməsinə böyük önəm verir. DİM-in müddəalarının 61 faizi Qazaxıstanın milli strateji proqramlarında əksini tapıb.

Milli Məclisin deputatı **Elman Nəsirov** bildirib ki, bu gün Azərbaycan dünyaya multikulturalizm dəyərlərini ixrac edən, beynəlxalq sülhə, təhlükəsizliyə mühüm töhfə verən ölkə kimi tanınır. Bu forum da Azərbaycanın dünyada humanitar dəyərləri təbliğ etməsinin göstəricisidir.

Xarici İşlər Nazirliyinin Humanitar Siyasət İdarəsinin rəisi **Əlimirzamin Əsgərov** vurğulayıb ki, Azərbaycan DİM-i milli inkişaf strategiyasında nəzərə alaraq, yaxşı idarəetməni, davamlı inkişafı və qanunun aliliyini gücləndirən, insan hüquqlarına hörməti, ictimai xidmətlərin asanlığını təmin edən genişmiqyaslı proqramlar həyata keçirib, inklüziv cəmiyyətlərin qurulmasını təbliğ edir. İnkişaf etməkdə olan ölkələr arasında Azərbaycan sosial inklüzivlik indeksinə görə üçüncü yerdədir. Dövlət institutlarının fəaliyyətinin təkmilləşdirilməsi və yaxşı idarəçilik sahəsində mühüm işlərdən biri də dövlət qulluğuna qəbulun şəffaflaşdırılmasıdır.

### Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında BMT İnkişaf Proqramının MAPS missiyasının rolu müzakirə edilib

Forumun dördüncü sessiyasında "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında BMT-nin İnkişaf Proqramının aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək missiyasının rolu" mövzusunda müzakirələr aparılıb.

Sessiyanın moderatoru, BMT-nin İnkişaf Proqramının Avropa və MDB üzrə regional bürosunun direktor müavini **Rastislav Vrbenski** BMT İnkişaf Proqramının aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək (MAPS) missiyasının DİM-ə nail olunması istiqamətində görülən işlərin intensivləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Dövlət Statistika Komitəsinin (DSK) sədri **Tahir Budaqov** DİM-in həyata keçirilməsinin sosial-iqtisadi və demoqrafik proseslərin qiymətləndirilməsinə böyük ehtiyac yaratdığını vurğulayaraq, bu baxımdan milli statistika qurumlarının üzərinə böyük vəzifələr düşdüyünü deyib. T.Budaqov bildirib ki, DSK Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, son illərdə milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində beynəlxalq əməkdaşlıq şəraitində mühüm tədbirlər həyata keçirib.

DSK sədri diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndən irəli gələn məsələlərin həlli üçün 2018-2025-ci illərdə milli statistikanın inkişafına dair Dövlət Proqramının icrasına başlanılıb. DİM göstəriciləri ilə bağlı məlumatların əldə edilməsi üçün inzibati məlumat mənbələrindən və böyük məlumatlardan (Big Data) istifadə mühüm əhəmiyyət daşıyır. DSK dünyada ilk statistika qurumlarından biridir ki, 2015-ci ildə komitənin nəzdində dayanıqlı inkişaf statistikası şöbəsi yaradılıb.

Belarus Xarici İşlər Nazirliyinin Çoxtərəfli Diplomatiya Baş İdarəsinin direktoru **Larisa Belskaya** bildirib ki, statistika olmadan DİM Gündəliyinin həyata keçirilməsinin səviyyəsini öyrənmək mümkün deyil. L.Belskaya Azərbaycanın təcrübəsindən istifadə edilərək ölkəsində "gənc səfirlər"in hazırlanmasına başlanıldığını və digər layihələrin həyata keçirildiyini bildirib.

Bosniya və Herseqovinanın Xarici İşlər Nazirliyinin xüsusi işlər üzrə səfiri **Miloş Prisa** ölkəsində "Zamisli 2030" proqramında həm DİM-ə nail olmaq, həm də Avropa İttifaqına qoşulmaq üçün öhdəliklərin yerinə yetirilməsi məsələlərinin əksini tapdığını deyib.

BMT İnkişaf Proqramının Avropa və MDB üzrə Regional Bürosunun baş məsləhətçisi **Ben Slay** DİM-in həyata keçirilməsinin maliyyələşmə mexanizmindən danışıb. Azərbaycanda MAPS missiyasının həyata keçirilməsinin bir çox ölkələr üçün örnək olduğunu vurğulayan Ben Slay deyib ki, Azərbaycan bu fəaliyyətə qoşulan ilk ölkələrdəndir.

BMT-nin Ərzaq Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin rəhbəri xanım **Mələk Çakmak** Dayanıqlı İnkişaf üzrə forumun təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Ərzaq təhlükəsizliyi məsələsində kənd təsərrüfatının inkişafının önəmini xüsusi vurğulayan M.Çakmak FAO-nun Azərbaycan hökuməti, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsçüsü və rəhbəri olduğu IDEA İctimai Birliyi ilə səmərəli əməkdaşlıq etdiyini deyib.

UNICEF-in Azərbaycandakı nümayəndəsi **Edvard Karvardin** bildirib ki, DİM-ə nail olunmasında MAPS missiyası mühüm rol oynayır. Bu prosesdə təhsilin rolunu yüksək qiymətləndirən E.Karvardin deyib ki, təhsilli, yüksək texnologiyalardan istifadə qabiliyyətinə yiyələnən gənclər DİM-ə nail olmaq yolunda mühüm rol oynayacaqlar.

### Forumun yekununda Bakı prinsipləri qəbul edilib

Bakı Forumunun sonuncu - beşinci sessiyasının iştirakçıları "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün təmiz su təchizatı, o cümlədən iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə aparmaq üçün əməkdaşlığın gücləndirilməsi" mövzusunda müzakirələr aparıblar.

Sessiyanın moderatoru, ekologiya və təbii sərvətlər naziri **Muxtar Babayev** bildirib ki, bəşəriyyətin üzləşdiyi ciddi ekoloji problemlər DİM üzrə həyata keçirilən fəaliyyəti xeyli ləngidir. Dünya əhalisinin böyük hissəsi su qıtlığından əziyyət çəkir. Buna görə də təmiz suyun səmərəli idarə edilməsi DİM-ə nail olunmasında mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik **Urxan Ələkbərov** Azərbaycanda ümumi daxili məhsulun hazırlanmasında sərf olunan enerjinin miqdarının azaldılması istiqamətində qazanılan nailiyyətlərdən danışıb. Bildirib ki, 2003-cü ildə Azərbaycanda atmosferə bir kiloqram karbon emissiyası atılırdı, hazırda bu rəqəm 200 qramadək azalıb. Bu, MDB ölkələri arasında ən aşağı göstəricidir. Bu, DİM-ə nail olmaq yolunda Azərbaycanın qazandığı ən mühüm nailiyyətlərdən biridir. Dünya Bankının göstəricilərinə əsasən, hazırda dünyada ümumi daxili məhsul istehsalında enerji səmərəliliyi nisbəti 100-dən çox olduğu halda Azərbaycanda bu rəqəm 88,9-dur. Azərbaycanın enerji səmərəliliyi indeksində üçüncü yerdə olması ölkəmizin bu sahədə mühüm nailiyyətlər qazandığını ortaya qoyur.

Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədr müavini **Nurəli Yusifbəyli** bildirib ki, Azərbaycanda alternativ enerji mənbələrindən istifadə üzrə dövlət proqramları, konsepsiyalar, yol xəritələri qəbul olunub və bunun sayəsində ölkəmiz müsbət nəticələrə nail olub. Görülən işlər nəticəsində Azərbaycan energetika, dayanıqlı inkişaf və ətraf mühit məsələləri üzrə hesabatlarda "enerji üçbucağı indikatoru" üzrə öz göstəricilərini 9 bal yaxınlaşdıraraq dünyada 36-cı pillədə qərarlaşıb.

BMT-nin Məskunlaşma (UN-Habitat) proqramının regionlararası məsləhətçisi xanım **Katya Şafer** Azərbaycana ilk dəfə 17 il əvvəl turist kimi gəldiyini və ötən müddətdə ölkəmizin sürətlə inkişaf etdiyini, Bakının daha da gözəlləşdiyini deyib. O, şəhərlərdə dayanıqlılığın təmin olunmasında düzgün planlaşdırmanın əhəmiyyətini vurğulayıb.

Cenevrə Universitetinin professoru, Qlobal ətraf mühit siyasəti proqramının direktoru **Aleksandr Hedcazi** bildirib ki, DİM-in 11-ci məqsədi şəhərləri daha təhlükəsiz və dayanıqlı olmasını nəzərdə tutur. O, təqdimatında Bakı və Cenevrə şəhərlərinin dayanıqlılıq göstəriciləri arasında müqayisəli təhlil aparıb.

"Azərsu" ASC-nin Sukanal Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru **Fərda İmanov** qeyd edib ki, bölgələrdə əhalinin içməli su təchizatını yaxşılaşdırmaq üçün 52 rayonda layihələr həyata keçirilir. Artıq 33 rayonda su təchizatı xətləri inşa olunub. Həmçinin 10-dan çox şəhərdə kanalizasiya sistemləri inşa olunub. Son dövrdə regionlarda 10-a yaxın çirkab sutəmizləyici qurğular quraşdırılıb. Bu qurğularda təmizlənən sular Avropa standartlarına uyğundur.

Sessiyalardan sonra forumun bağlanış mərasimi keçirilib.

Bağlanış mərasimində çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri **Əli Əhmədov** bildirib ki, həm VI Bakı Beynəlxalq Humanitar Forumunda, həm də Dayanıqlı İnkişafa dair Bakı Forumunda səmərəli müzakirələr aparılıb. Əli Əhmədov qeyd edib ki, dayanıqlı inkişaf məqsədlərini həyata keçirməklə biz öz gələcəyimizi daha işıqlı və firavan etməliyik. Ona görə də bütün bəşəriyyət dünyamızı DİM-ə uyğun olaraq, 2030-cu ilə qədər yaxşılaşdırmaq üçün addımlar atmalıdır.

Baş nazirin müavini vurğulayıb ki, bu gün dünya ciddi addımlar atılmasa, çox ağır durumla qarşılaşacaq səviyyəyə gəlib çatıb. Ona görə də bütün dövlətlər öz səylərini birləşdirməlidir. Vaxt az qalıb, qalan vaxtdan istifadə edib dünyamızı dəyişdirməyə nail ola biləcəyik.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi **Qulam İshaqzai** forumda DİM-ə nail olunması istiqamətində səmərəli müzakirələrin apardığını vurğulayıb. Q.İshaqzai forumun yekununda Bakı prinsiplərinin qəbulunun DİM-ə nail olunması prosesində mühüm rol oynayacağına əminliyini bildirib.

Forumun yekununda DİM-in milli səviyyədə inteqrasiyası və icrasının sürətləndirilməsinə dair Bakı prinsipləri qəbul edilib. Sənəddə BMT-nin İnkişaf Qrupu tərəfindən DİM-in icrasına dəstək üçün təqdim olunan "İnteqrasiya, Sürətləndirmə və Siyasət Dəstəyi" (MAPS) platformasının tətbiqində Azərbaycanın 2017-ci ilin may-iyun aylarında həyata keçirilmiş MAPS missiyası ilə başlayan təcrübəsinə əsaslanılmasının vacibliyi qeyd olunub. Həmçinin DİM-in inteqrasiyası və onların icrasının sürətləndirilməsinə diqqət yetirməklə yanaşı, məqsədlərin maliyyələşdirilməsi və onların icrasına dair hesabatların verilməsi məsələlərinin də vacibliyi vurğulanıb. Bundan başqa, DİM-in inteqrasiyasının və onların icrasının sürətləndirilməsinin çoxillik proses olduğu bildirilib.

Bununla da Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən Dayanıqlı İnkişafa dair Bakı Forumu başa çatıb.

Azərbaycan.- 2018.-27 oktyabr.- S.4.